# *AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN*
## *Hərbi Tibb Fakültəsinə Hərbi tibb, Stomatologiya, İctimai səhiyyə ixtisasları üzrə 2025/2026-cı tədris ili üçün sənəd qəbulu*

**Ümumi məlumat:**
**Tədris dili:** **Azərbaycan dili** **Təhsil forması:** əyani
**Təhsil müddəti:** Hərbi tibb ixtisası - **6 il**;
Stomatologiya ixtisası - **5 il**;
İctimai səhiyyə ixtisası - **5 il**.

Cari ildə ümumitəhsil pilləsinin tam orta təhsil səviyyəsini bitirmiş, 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli mülki vətəndaşları, habelə 18 yaşından 23 yaşınadək kişi cinsli, zabit rütbəsi olmayan hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul edilirlər.

### SƏNƏDLƏRİN QƏBULU:

Hərbi tibb, Stomatologiya, İctimai səhiyyə və Əczaçılıq ixtisasları üzrə Hərbi Tibb Fakültəsinə qəbul olmaq istəyən namizədlər 3 fevral 2025-ci il tarixindən 31 may 2025-ci il tarixinədək ərizə ilə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. **Abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış**
2. **Anket forması**
3. **Tam orta təhsil haqqında sənədin surəti (cari ilin məzunları üçün arayış)**
4. **Doğum haqqında şəhadətnamənin surəti**
5. **Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış**
6. **Nikah və uşaqların doğum haqqında şəhadətnamənin surəti (evli olduqda)**
7. **Ailə tərkibi və yaşayış yeri haqqında arayış**
8. **Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm**
9. **18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının razılıq ərizələri**
10. **Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar**

***Qeyd:** 1. Namizədlər hər hansı səbəbdən Hərbi Tibb Fakültəsində təhsil almaqdan imtina etdikləri halda, Azərbaycan Tibb Universitetindən xaric olunmaları barədə öhdəlik götürürlər.*

*2. Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən sənədlərin qəbul mərkəzində fəaliyyət göstərən komissiyaya şəxsən təqdim edilir.*

**_HƏRBİ TİBB FAKÜLTƏSİNƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR_**

1.Götürülməmiş intizam cəzası olan (yalnız hərbi qulluqçular), məhkumluğu ödənilməmiş və ya üzərindən götürülməmiş, həmçinin ağır və ya xüsusilə ağır, habelə hərbi xidmət əleyhinə cinayət törətmiş, hərbi təhsil müəssisələrindən xaric edilən, hərbi həkim komissiyası tərəfindən institutda təhsil almağa yararsız hesab olunan və öyrənilmə tədbirləri keçirilən zaman Hərbi Tibb Fakültəsinə qəbula mane olan digər hallar müəyyən edilən şəxslər Hərbi Tibb Fakültəsində təhsil almaq üçün namizədlər siyahısına ***daxil edilmirlər***.

2.Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün **Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinə** göndərilir və onlar **Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi** tərəfindən keçirilən ***qəbul imtahanı*** verirlər. Qəbul imtahanı ***IV ixtisas qrupunun*** fənləri üzrə keçirilir.

3.Namizədlərin Hərbi Tibb Fakültəsinə qəbulu abituriyentlərin qəbulu imtahanında əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir.

***4.Qəbul imtahanının tarixi Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunur.***

***Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasından keçmək üçün tarix və ünvan namizədlərə əlavə olaraq bildiriləcək.***